*İRADƏ TUNCAY*

# İmpressiya...

*Konsert - yəni yarışmaq... Nə ilə, kim ilə???*
*Əlbəttə, zamanla...*

*Müəllif özü belə təqdim edir... Xanım fəsli deyir... Zamanın Xanım fəsli... Və mənə elə gəldi dinləyib də zövq aldığımız musiqilərin də, şeirlərin də,heç unuda bilmədiyimiz ifaçıların təəssüratı məhz belə idi - xanım-xatın...*



*Hər yeni ifaçını eşitdiyimizdə qəlbimizin dərinliyində yaşayan antik (belə deməkdən qorxmuram ) obrazları yenidən canlanırdı qulaqlarımızda... Bu nöqtələr də onların canlı olduğunu deyir. Onlar yenə var, yenə Xanım fəslində yaşayırlar...Və bizi də yaşadırlar... Hər mahnını eşitdikdə ürəyimizdə təkrar-təkrar oxuyuruqsa ," AĞLA" dedikcə ağlayırıqsa, unuda bilmiriksə "UNUT MƏNİ" dedikcə, çünki "XATİRƏLƏR"i var demək... Zaman var...*

*Xanımın özünün öz zaman anlayışı var və özündən başlamır bu tarix... Ailə var və bu ailə sözlə bağlıdır... İsmayıl Qarayevin ailəsidir... Daha əvvəl də kimlərsə olub mütləq bu tarixdə... Qonaq qismində dəvətli olanların da tarixi vardı bu məclisdə. Və bu məclisin öz aurası vardı... Onlar sevgi ilə gəlmişdilər, öz qucaqlarında sevgi gətirmişdilər, alqış gətirmişdilər... Parlaq obrazlar gətirmişdilər...*



*Elm deyir ki, məhz konsert dinləmək insanın ömrünü uzadır. Canlı musiqi insan psixikasına təsir edir. Belə gərgin bir vaxtda belə dinclik yaşamaq, bunu yaşamaq şəraitini yaşamaq, belə Xanım fəsildə yaşamaq...*

*Böyük əksəriyyət konsertə niyə gedir ??? Sevdiyi musiqiləri dinləmək, sevdikləri ifaçıları canlı görmək üçün əlbəttə. Unikal bir enerji alırsan - təkrar oluna bilməyən...*

*Və həyatdan zövq almağa başlayırsan, ətraf aləmlə bütünləşməyə başlayırsan, hətta əqli fəaliyyətin güclənir!!! Fiziki sağlamlığa təsir edir!!! Yeni tanışlıqlar, maraqlı ünsiyyət... Atmosfer maraqlı olur!!! Hətta fiziki təsir elə güclü olur ki, qorxduğumuz koloriləri yandıra bilirik!!!*



*Çıxış, şou, tamaşa, göstəri, ifa, müzikl... Bir sözlə, ŞÖLƏN... Musiqi şöləni!!!*

*Xanımın xarakterini bilən biri kimi deyim - şübhə eləmirdim məhz belə olacağına ... Şəbəkədən də izləyirdim gedişatı... Özünə və sevənlərinə dərin hörmətlə yanaşan Xanım... Həm də nə qədər gəncləri yetişdirən Xanım - sanki təqdimat da edirdi... Bu gənclərə ana ola bilən Xanım!!! Sanki hamı vardı - dünyasını dəyişənlər də, bu fani dünyada yaşayanlar da ... Vardı...*

*Var ol hər zaman!!! Xanım!!!*